# Məni tutan misralar



■ MÜBARİZ ŞİRİNOV
Həkim - şair

Ən çox sevdiyim, bəlkə də şeirlərinin yarıdan çoxunu əzbər bildiyim şairdi, Məmməd Araz. Onun hər misrası bir həyat həqiqətidi, bir haray, bir üsyandı, bir nəğmədi, bir sehrdi. Hər misrası bir sevgi himnidi.

O itə daş atma
Daş atma, bala.
İt ar bilməyəcək daldalanmağı,
Daşın bir yaddaşda ilişib qalar.
Burdan öz yolun da düşəcək axı,
Daş üçün it olmağın, adam olmağın
nə fərqi.
Daş atma,daş atma bala.

Və ya,

" Yer mənim, göy mənimdi,"
Desəm vallah yalandı.
Nə göyə əlim çatan,
Nə yer mənim olandı.

*   *   *

Bəlkə də hər gün ən azı bir dəfə olsa da dostum Murad Qoçuoğlunun aşağıdakı misralarını ürəyimdə təkrar eləyirəm. Və sonda da sağ ol ay Murad, deyirəm.

Mənə dəli deyirsən, qoy belə olsun,
Onsuz da dünyada ağıllı çoxdu.
Dünya belə gəlib, belə gedirsə,
Dəli olmayanın ağılı yoxdu.

*   *   *

Sən demə, özü bilirmiş ki, ölümü qaşıyla gözü arasında gizlənib. Bilməseydi bu misraları yazmazdı mərhum CABİR SAVALAN.

Yaxın gəl, yaxşı tanı.
Sən Cabir Savalanı.
Əsə-əsə bu canı,
Əcəl üçün saxlaram.

Və yaxud,

Tanrım, şükürlər sənə,
Səndən əlim üzmərəm.
Təbibim sənsən mənim,
Ayrı loğman gəzmərəm.

...İmdad hələ qabaqda,
Sirat hələ qabaqda.
Fəryad hələ qabaqda,
Dünya sağ-salamat qal.

Nə ki qonum-qonşu var,
Namazıma durarlar.
Sonra məclis qurarlar,
Dünya sağ-salamat qal.

*   *   *

Kamandar EYVAZLININ bir şeiri mənim könlümcə olanlardan olduğu üçün onu da " Məni tutan misralar"a aid elədim.

Taleyin sifəti yamanca dönüb,
Daha yaşamağa marağım yoxdur.
Göydə ayım batıb, günəşim sönüb,
Evdə yandırmağa çırağım yoxdur.

Mən zülüm içində tapıb dözümü,
Saxladım ayaqda yenə özümü.
Könül harayımı, ürək sözümü,
Yazmağa qələmim, varağım yoxdur.

Tökülüb saçıma qar-qırov indi.
Ömrüm bu dünyada bir girov indi.
Dayanıb qarşımda həmən ov indi,
Amma ovlamağa yarağım yoxdur.

*   *   *

"O hansı dərddi ki, mənimki deyil" Bu misra xatirini çox istədiyim şair dostum VALEH BAHADUROĞLUNUNDUR. Onun məni "tutan" misraları yetərincədir.

Hopsa da ruhuma payız havası,
Könlümün yaşamaq acı var hələ.
Hələ bu dünyadan nə görmüşəm ki,
Mənə bu dünyanın borcu var hələ.

Və yaxud,

Götür bircə dəstə çəmən çiçəyi,
Barı bircə dəfə qəbrim üstə gəl.
Yenə inadını qurşa belinə,
Mənim tükənməyən səbrim üstə gəl.

Daha sənsizliyin qatır başımı,
Daha sənsizliyin yadıma düşmür.

*   *   *

Səhv eləmirəmsə Sabir ALMASZADƏNİNDİR bu misralar. Bu misralar mənə ona görə doğmadır ki, bu misralarda bir həyat var, bir ömürlük yaşam var. Mənə elə gəlir ki, bu misraları nə vaxtsa nənəm mənim qulağıma pıçıldayıb.

Üzü qara olsun müharibənin,
İnsanı hər şeyə möhtac eylədi.
Çörək istəyəndə körpə balalar,
Nənələr bir uzun nağıl söylədi.

Və ya

...Mərddən əsirgəyər öz sərvətini,
Namərdə, xəsisə mərddi bu dünya.
Zalıma məzlumdu, məzluma zalım,
Yaman amansızdı, sərtdi bu dünya.

*   *   *

Demək olar ki,elə ağlım kəsəndən yerli (imişli rayonu) şairlərimizdən RƏHİM Rəmzinin ara-sıra şeirlərinin mətbuatdan oxumuşdum. Ancaq onun şeirlərini toplanıb kitab halında çap olunması məni də çox sevindirdi. Mən onun yaradıcılığının nə qədər çox şaxəli olduğunun şahidi oldum.

Gənclik mənə baxdı keçdi,
İldırım tək çaxdı keçdi.
Mən göz açıb ayılınca
Ömür nə tez axdı keçdi.

... Mən çıraq götürüb adam gəzirəm,
Elə bir adam ki, əhli-hal olsun.
Düzü incimişəm qədirbilməzdən,
İstəməm yanımda qeylü-qal olsun.

... Namərdi dost bilib, bir xahiş etdim,
Sözüm yerə düşdü, sözümdən küsdüm.
İstədim deyəm ki, sən nanəcibsən
Üzüm var gəlmədi, üzümdən küsdüm.

*   *   *

Bir dəfə oxumaqla yadda qalan misralardandır, ÇİÇƏK Məmmədovanın aşağıdaki bir beyti.

Tər qönçədə çiçək idim,
Açıldım sabah eşqinə.
Nə biləydim ətrim-rəngim,
Yazılır günah eşqinə.

*   *   *

Sevdiyim şairlərdən biri də BƏHMƏN VƏTƏNOĞLUDUR. Ona görəki, onun yazdığı şeirlər cəmiyyətin, təbiətin, insanlığın fotosudu. Şeir var ki, ilk misrasını oxuyan kimi qoyursan qırağa. Şeir də var ki, oxu məni, deyir. Bəhmənin şeirləri oxu məni deyənlərdəndir.

Ay Zəlimxan, elə kövrək olmuşam,
Səhər-səhər meh də dəyir xətrimə.
İncimişəm suların da səsindən,
Göy çəməndə şeh də dəyir xətrimə.

.. Daldalan uğursuz əsən küləkdən,
Astarı şeytandan, üzü mələkdən.
Keçir şadaradan, keçir ələkdən,
Bəhmənin sözündə saxta nə var ki?

*   *   *

Bir bənd də FƏXRƏDDİN Ziyadan deyək.

Dərdi bir yandadı, nəfsi bir yanda,
Sərvət azarına tutulan millət.
Korşalmış qılıncı paslanır qında,
Söhbət azarına tutulan millət.

*   *   *

Rusiyada yaşayan iş adamı BALOĞLAN CƏLİL İDRİS ( Lənkəran) yazır;

Ağırdır söz demək, susmaqdan ağır,
Yuxumu görürəm, nədir İlahi?
Dağları çiynində gəzdirən oğlan,
Bu gün çiyinlərdə gedir İlahi.

*   *   *

Həmyerlim, istedadlı şair Dayandur Sevginin " Əl ağacı" şeiri sevdiyim misraların bəlkə də ən yaxşılarıdır.

Əl ağacı demə, xətrimə dəydi,
İgidin əlində ər ağacıdı.
Qurdu damaq eylər, oğrunu peşman,
Çobanın çiynində zor ağacıdı.

Barını gəzirik hey budaq - budaq,
Demirik bir yol da qolundan tutaq.
Pulluya sandıqdı , tüfəngə qundaq,
Qeyrət ağacıdı, ar ağacıdı.

*   *   *

Görkəmli şairimiz Nəriman Həsənzadə həyat yoldaşının ölümündən sonra ona xeyli şeirlər həsr etmişdir. Bunlardan bir beyti oxucuların diqqətinə çatdırıram:

... Evi bəzəyərdi, gəzəl görünsün,
Evimin ən gözəl bəzəyi getdi.

*   *   *

Xatirini çox istədiyim dostlarımdan olan AĞASƏTİN şeirləri içərisində qəzəlləri mənimçün xüsusi maraq kəsb edir.

Eşqi izhar etməyə dildə hünər olsun gərək,
Təyinati hüsn üçün aydın səhər olsun gərək.
Sanma ki, hər gül ilə getmək olar yar yanına,
Yarpaqlar üstündə şeh, güllər də tər olsun gərək.
Vusala yetmək üçün bir damla yaş bəs eyləməz,
Aşiqin göz yaşları abi - köfsər ilsun gərək.
Eşq incə qəlb hissidir, nadan qiymət verməz ona,
Xiridar verən qiymət ləli- gövhər olsun gərək.

*   *   *

Musa Yaqubdan deyəcəyim bu bir beyti bəlkə də bütün oxucular əzbər bilir.

Bəlkə də, borcundan çıxmadım VƏTƏN,
Ömür bahar deyil bir də qayıtsın.
Öləndə qoynunda qoy ölüm ki mən,
Çürüyüm, bir ovuc torpağın artsın.

*   *   *

Çingiz Bahaduroğlunun Vətən haqqındakı şeiri də məni tutan misralardandı.

Tanı , öz dinini , dilini tanı,
Tanı öz kökünü , elini tanı.
Hanı əsir düşmüş mənliyim , hanı,
Qaytar ki Vətən də nər desin sənə.

Və yaxud,

Keçmişi görk edib soxma gözümə,
Bu günki tarixim şərəf gətirmir.
Ütülü tərifi az de üzümə,
Daha başım altı yastıq götürmür.

Mərhum şairimiz Çingiz Bahaduroğlunun misraları ilə yekunlaşdırmaq istədiyim "Məni tutan misralar" yazısında apardığım qeydlər də elə mənim ürəyimdən keçən duyğuların bədii məcmusudur. Bütün yaradıcı kəslərə uğurlar arzusu ilə...